QANUN № 06 (380), 2026, s. 221-231

Həsənli Ayan Elçin qızı,
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının
hüquqşünaslıq ixtisası üzrə 3-cü kurs tələbəsi
E-mail: ayanhsnli4@gmail.com

UOT 343.9
DOI: https://doi.org/10.30546/2218-9130.060.2026.0189

İNSEST CİNAYƏTLƏRİ: KRİMİNOLOJİ XÜSUSİYYƏTLƏRİ, MÜQAYİSƏLİ HÜQUQİ TƏHLİL VƏ QANUNVERİCİLİYİN TƏKMİLLƏŞDİRİLMƏSİ PERSPEKTİVLƏRİ

Açar sözlər: *uşaq, insest cinayətləri, cinsi istismar, yaxın qohum, dağıdıcı təsirlər, qanun.*

Ключевые слова: *ребёнок, инцестуозные преступления, сексуальное насилие, близкий родственник, разрушительные последствия, закон.*

Keywords: *child, incestuous crimes, sexual abuse, close relative, destructive effect, law.*

Azərbaycan cəmiyyəti də daxil olmaqla demək olar ki, bütün dünyada ən acınacaqlı və haqqında danışılması çətin, təhqiqatı, istintaqı və tövsifi mürəkkəb olan cinayət əməllərindən biri də, cinsi zorakılıq, xüsusilə uşaqların cinsi zorakılığı və ya cinsi istismarıdır. Təəssüflər olsun ki, uşaqların cinsi istismarı halları cəmiyyətin acı bir gerçəkliyidir. Dünyada hər il 40 milyona yaxın uşağın zorakılığa məruz qaldığı təxmin edilsə də, ABŞ, İngiltərə, Almaniya, Rusiya və Hindistan kimi ölkələrdə ciddi zorakılıq hallarının olması diqqət çəkir. Avropa Şurasının məlumatına görə, Avropada hər 5 uşaqdan 1-i hansısa formada cinsi zorakılığa məruz qalır [8, s. 11].

Son dövrlərdə, uşaqların cinsi istismarı cinayətlərinin xüsusilə də ailədaxili münasibətlərə geniş miqyasda sirayət etməsinin şahidi oluruq. Bu sahədə formalaşan ictimai münasibətlər müxtəlif hüquq sistemlərinə aid dövlətlərdə fərqli hüquqi tənzimləməyə məruz qalır.

Təqdim olunan məqalədə müqayisəli hüquq metodu tətbiq edilməklə müxtəlif hüquq sistemlərinə aid dövlətlərin qanunvericiliyi əsasında müqayisəli tədqiqat aparılmışdır. Müqayisəli hüquq metodu – müxtəlif ölkələrin və ya hüquq sistemlərinin qanunvericiliyini, hüquqi institutlarını və tətbiq mexanizmlərini qarşılaşdıraraq öyrənən elmi tədqiqat üsuludur. Bu metod subyektə tədqiqat obyektləri arasındakı əlaqə və fərqləri daha aydın şəkildə görməyə imkan verir.

Məqalədə müəyyən olunur ki, roman-german hüquq sistemində daxil olan, habelə qanunvericilik və hüquqi tənzimləmə baxımından ölkəmizə yaxın olan Almaniya, Türkiyə və Gürcüstan qanunvericilikləri müqayisəli hüquq

metodu tətbiq edilməklə araşdırılmış, müəyyən olunmuşdur ki, bu sahədəki ictimai münasibətlər Cinayət Məcəlləsinin tərkib hissəsi kimi tənzimlənir, digər tərəfdən anqlosakson hüquq sisteminə daxil olan nümunə kimi Böyük Britaniya qanunvericiliyində, bu tənzimləmə ayrıca qanun formasında həyata keçirilir.

Bu məqalədə ilk növbədə "insest"in anlayışı, onun cəmiyyətdəki real miqyası, məsuliyyətin differensasiyalaşdırılmasına səbəb kimi uşaqlar üzərindəki dağıdıcı təsiri, qeyd olunan formada xarici hüquqi tənzimləmə praktikasının müqayisəli təhlili və yekun olaraq milli qanunvericiliyimizə şiddətlə tövsiyə olunan təkmilləşdirmə barəsində təhlil aparacağıq.

İlk öncə, uşaq dedikdə Uşaq hüquqları haqqında Konvensiya və Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında Avropa Şurası Konvensiyasına əsasən, 18 yaşına çatmayan şəxs başa düşülür [6, s. 7].

"İnsest" uşaqların cinsi istismarı cinayətlərinin xüsusi bir növü qismində çıxış edir. İnsest – yaxın qohumluq münasibətlərində olan şəxslər arasında baş verən cinsi xarakterli münasibətlərdir. Uşağa münasibətdə törədildiyi hallarda isə bu əməl eyni zamanda uşağın cinsi istismarı formasında qiymətləndirilə bilər. İnsest aşkar edilməsi olduqca çətin olan və uzun müddət davam edə bilən ən ağır cinsi istismar formasıdır. İnsest uşağın sağlam və normal inkişafını pozur və müxtəlif psixiatrik pozuntuların meydana çıxması üçün həssaslıq yarada bilir. İnsestin yaratdığı ağır nəticələr lazımi qaydada alınmadıqda ciddi nəticələr ortaya çıxır.

Tədqiqatlar göstərir ki, uşaqların əhəmiyyətli bir hissəsi ailə üzvləri, qohumlar və yad şəxslər tərəfindən cinsi istismara məruz qalır; lakin, ailə üzvləri tərəfindən istismar nisbəti əhəmiyyətli dərəcədə daha yüksəkdir. Avstraliya Sağlamlıq və Rifah İnstitutu Avstraliyada qız uşaqları 88% nisbətində öz tanışları tərəfindən, bunların içindən isə təxminən 47 %-i valideynləri tərəfindən cinsi istismara məruz qalmışdır [12]. Böyük Britaniya üzrə təxminən 500,000 uşaq hər il cinsi istismara məruz qalır – bu istismar ailə mühitində, ictimai yerlərdə, onlayn və müxtəlif institutlarda baş verir. Dəqiq faiz nisbətinə rast gəlməsək də, hökumət tərəfindən açıq şəkildə bildirir ki, uşaqların əksəriyyəti ailə mühitində istismar olunur [14].

UNICEF-in 2017-ci ildə nəşr etdiyi "A Familiar Face: Violence in the Lives of Children and Adolescents" ("Tanış Bir Üz: Uşaqların və Yeniyetmələrin Həyatında Zorakılıq") hesabatı uşaqlara qarşı zorakılığın dörd spesifik formasını – körpə yaşda evdəki zorakı intizam tədbirləri və ailə içi zorakılığa məruz qalma; məktəbdə zorakılıq; yeniyetmə dövründə zorakı ölümlər; uşaqlıq və yeniyetmə dövründə cinsi zorakılıq – ən son verilənlər əsasında işıqlandıran fundamental bir beynəlxalq sənəddir. Hesabat uşaqların həyatının bütün mərhələlərindəki zorakılığı sənədləşdirərək göstərir ki, bu zorakılıq çox vaxt gündəlik olaraq ünsiyyətdə olduqları tanınan şəxslər tərəfindən həyata keçirilir.

Hesabatın cinsi zorakılıqla bağlı tapıntıları bu araşdırma üçün xüsusilə vacibdir. Verilənlər mövcud olan 28 ölkə üzrə aparılmış müqayisəli analiz göstərir ki, məcburi cinsi əlaqəyə məruz qalmış yeniyetmə qızların 9/10-u bu hadisənin ilk dəfə özlərinə yaxın olan biri tərəfindən baş verdiyini bildirmişdir; ən çox göstərilən törədici kimi isə indiki və ya keçmiş sevgili, partnyor və ya ər qeyd olunmuşdur. Bu statistika insestin daha geniş fenomen olan tanışlar tərəfindən cinsi istismarın bir alt kateqoriyasını təşkil etdiyini göstərir. Oğlan uşaqlarına münasibətdə isə mövcud verilənlər olan 5 ölkədə (Kamboca, Haiti, Keniya, Malavi və Nigeriya) son hadisənin törədicisi kimi dostlar, sinif yoldaşları və partnyorlar ən çox sadalananlardandır.

Ailə içində cinsi istismar səbəbi olaraq, əsasən ailənin xarakteristikası və bunun nəsillərlə ötürülmə faktı qeyd edilir. Bir çox alimlər

bu fikirlə razıdır və ailə içindəki müxtəlif cinsi münasibətlərin nikah və ya qeyri-rəsmi münasibət vasitəsilə digər ailəyə keçirildiyini bildirir. Belə şəraitdə, əgər uşaqlar ailə üzvləri tərəfindən istismara məruz qalırsa, bu uşaqların böyüyəndə təcavüzkar rolunu oynama ehtimalı daha yüksəkdir. Bu, ailə üzvlərinə qarşı bir növ intiqamdır [16, s. 145].

Cinsi istismara uğramış uşaqların davranışında bəzi xüsusi ifadələri də müəyyənləşdiriblər. Bu ifadəyə cinsi marağın olmaması, gələcəkdə davranış problemləri, kədər, bədəni ilə və həyatı ilə bağlı bir şeyin doğru olmadığını hiss etmək, qeyri-adi aqressivlik, intihar davranışı, zehni pozğunluq, təcrid olunma və yadlaşma daxildir [16 s. 145].

Məsələyə kriminoloji mövqedən yanaşsaq, bir çox araşdırmalara əsasən, əqli geriliyi (mental retardasiyası) olan şəxslər, ümumi əhali ilə müqayisədə 4–10 dəfə daha çox cinsi istismar qurbanı olmağa meyillidirlər. Tükiyənin Adli Tıpp İnstitutunda aparılmış bir tədqiqatda, insest iddiası ilə göndərilən qurbanların 40,7%-ində müxtəlif dərəcələrdə əqli gerilik müəyyən edilmişdir [9, s. 36].

Əqli geriliyi olan səxslərin cinsi istismar qurbanı olma ehtimalının yüksək olması onların himayəsində olduqları şəxslərə qarşı yüksək etimad nümayiş etdirmələri, sosial və emosional həssaslıqları, cinsəllik və cinsi istismar barədə məlumatlılıq səviyyəsinin aşağı olması, sosial qəbul olunma ehtiyacının güclü olması, eləcə də cəmiyyətdə nisbətən zəif və asılı mövqedə olmaları kimi amillərlə əlaqələndirilir. Ailədən tam asılı olan zehni yetərsizliyi olan şəxslər cinsi hərəkətlərə təşəbbüs zamanı yönləndirilməsi asan, sui-istifadəyə qarşı müqavimət gücü zəif olan fərdlərdir. Bundan əlavə, onların cinsi hərəkətlə bağlı digər şəxsin niyyətini qiymətləndirmə bacarığı və hadisələri mühakimə etmə qabiliyyəti zəifdir [9, s. 36]. Yəni əqli geriliyi olan şəxslərin sosial və psixoloji zəifliklərı onların bu tip cinayətlərin qurbanı olmasına şərait yaradır.

Ədəbiyyatda həmçinin hücum edən şəxsin sosial mühitdə çox vaxt "normal" kimi tanınan biri olduğu qeyd olunur. Yəni düşünüldüyü kimi alkoqol asılılığı olan və ya psixopatoloji xarakterli biri deyil [9, s. 36].

Uşaqların zərərçəkmiş şəxs qismində çıxış etdiyi cinsi toxunulmazlığı və cinsi azadlıq əleyhinə olan digər cinayətlər kimi insest cinayətləri də yüksək latentliyi ilə xarakterizə olunur. Lakin bu cinayətlərin ailə daxilində törədilməsi faktını nəzərə alsaq, latentlik səviyyəsi maksimum həddə yüksəlir.

Ailə daxilində cinsi istismar, çox vaxt gizli qalan və xronik xarakter alan bir hərəkətdir. Cinsi istismarın ailə mühitində baş verməsi, cəmiyyət tərəfindən qəbul edilməməsi və ailənin parçalanması qorxusu kimi amillər, insestin üzə çıxarılmasını çətinləşdirir və bu hallar adətən illərlə gizli qalaraq davam edir [9, s. 36].

UNICEF-in 2017-ci ildə nəşr etdiyi hesabatında göstərilir ki, bu cinayətin qurbanlarının yardım axtarışı son dərəcə aşağı səviyyəsidir: cinsi zorakılığa məruz qalmış yeniyetmə qızların yalnız 1 faizi peşəkar yardım axtardığını bildirmişdir. UNICEF hesabatı bu mövzuda məlumatların toplanmasının etik və metodoloji baxımdan xüsusi çətinliklər yaradan mürəkkəb bir iş olduğunu da vurğulayır. Zorakılığın gizli qalmasına səbəb olan amillər sırasında hesabat aşağıdakıları qeyd edir: zorakılığı törədən şəxsin qurbana tanış olması səbəbindən həmin hərəkətlərin normal və ya qəbul edilən davranış kimi qavranılması; utanc hissi və ya qisas alma qorxusu ilə zorakılıq faktının gizlədilməsi; təqsirkarların cəzasız qalması; uzunmüddətli istismar nəticəsində qurbanın zorakılığı adi və qaçılmaz hal kimi qəbul etməyə başlaması.

Bir çox hallarda ailə daxilində (ata, baba, əmi, dayı və s. kimi qan qohumları tərəfindən törədilən hallarda) uşaqların cinsi istismarı siste-

matik xarakter daşıyır və təkrarlanan hərəkətlərlə kiçik yaşlardan müşahidə olunur. Bu halda uşaqların bu cinayətləri qavramaması ilə yanaşı latentliyə təsir göstərən digər hallara da rast gəlirik. Qurbanla cinayətkarın arasındakı qan bağının mövcudluğu, qurbanın cinayətkardan asılı vəziyyətdə (onun himayəsində) olması, onunla birgə yaşaması və ya tez-tez ortaq məkanda rastlaşmaları (qonaqlıqlarda və s.) halları qurbanın özünə daha çox qapanmasına, çəkinməsinə səbəb olur.

Bəzi hallarda emosional cəhətdən daha güclü olan qurbanlar bu barədə ailə üzvlərdən hər hansı birinə üstüörtülü və ya birbaşa məlumat verir və hər hansı tədbirin görülməsini gözləyirlər. Lakin qarşıdakı şəxs ya ona inamsızlıq bəsləyir ya da bu məsələyə tamamilə biganə qalmağı seçir. Praktikada anaların övladlarının yaxın qohumlar tərəfindən istismar faktını bilə-bilə buna göz yummasına az rast gəlinmir. Onlar nəinki hüquq mühafizə orqanlarına müraciət edir, hətta cinayət təqibi prokuror tərəfindən başlandığı hallara da, cinayətkarla barışığa gələrək cinayət təqibinə xitam verilməsi üçün orqana barışıq ərizəsi təqdim edirlər.

İnsest anlayışına bir çox ölkələrin cinayət hüququnda rast gələ və bu cinayət barəsində qanunverici tərəfindən müstəqil məsuliyyətin müəyyənləşdirildiyini görə bilərik. İnsest cinayətləri barəsində nəzərdə tutulmuş məsuliyyət, cinsi azadlıq və cinsi toxunulmazlıq cinayətlərinin digər növləri üçün nəzərdə tutulmuş məsuliyyətdən öz ağırlıq dərəcəsinə görə fərqləndirilir.

Uşaqların cinsi istismar növlərindən biri olan insest cinayətləri özlərinin yüksək latentliyi ilə yanaşı, ictimai təhlükəlilik dərəcəsi ilə də seçilir. Araşdırmalar müəyyən edir ki, cinsi toxunulmazlıq və cinsi azadlıq əleyhinə olan cinayətlərdən zərərçəkmiş şəxs qismində uşaqlar çıxış etdiyi halda, bu cinayətlərin onlar üzərində xüsusi mənəvi-psixoloji təsiri danılmazdır və illərlə davam edir. Bəs qurban barəsində eyni cinayətlər onunla qan bağı olan şəxslər tərəfindən törədildikdə necə?

Uşaq üçün ən təhlükəsiz mühit hesab edilən ailədən qaynaqlanan cinsi travmanın, ailə xaricindən yaranan cinsi travmaya nisbətən daha ciddi nəticələr doğurması qaçılmazdır. Ailə daxilində baş verən istismar hallarında təcavüzkar çox vaxt ata olur və ən çox rast gəlinən münasibət ata ilə qız arasında bildirilib. Ən az rast gəlinən növ isə ana-oğul arasındakı insestdir [9, s. 33].

Hüquq ədəbiyyatlarında ata-qız arasında olan insest tipində üç fərqli vəziyyətdən bəhs edilir.

Endogamik (endogamic – qrupdaxili evlilik): Bu tip atalar öz cinsi münasibətlərini ailə üzvləri ilə məhdudlaşdırır və ailədən kənar qadınlarla cinsi və ya sosial münasibətlərə girmək istəmirlər.

Təsadüfi cinsi münasibətdə olanlar (indiscriminately promiscuous): Bu tip atalar adətən psixopat olurlar (psychopathic).

Uşaqları cinsi baxımdan cəlbedici görənlər (pedophiles): Bu tip atalar psixoseksual inkişaf baxımından gecikmiş və sosial cəhətdən yetkinləşməmiş olurlar [11, s. 2].

Cinsi istismarın ailə daxilində yaşanması cəmiyyət tərəfindən qadağan olunmuş və qəbul edilməz olması səbəbilə üzə çıxarılması zəruri faktdır. Alkoqol və maddə sui-istifadəsi, çoxuşaqlı ailə, artmış fiziki yaxınlıq, boşanma və ailənin cəmiyyətdən təcrid olunması insestin tezliyinə təsir edən amillərdir. İstismar zamanı uşağın yaşı, istismarın tipi, zorakılıqdan istifadə olunub-olunmaması, istismarçının yaxınlıq dərəcəsi, digər ailə üzvlərinin reaksiyası kimi amillərə bağlı olaraq insest müxtəlif ölçüdə problemlərə səbəb olur.

Cinsi təcavüzə məruz qalmış uşaqlarda cinsəllik mövzularına anormal maraq göstərmə və ya tamamilə maraqsız qalma, yuxu problemləri və ya kabus görmə, depressiya və ya

ətrafından uzaqlaşma, bədəninin çirkli olduğu və ya cinsiyyət orqanları bölgəsində bir problem olduğu kimi düşüncələrə sahib olma, məktəbə getmək istəməmə, uyğunsuzluq və intizamsızlıq göstərmə, aqressivlik kimi əlamətlər müşahidə oluna bilər [9, s. 33].

Uşağın cinsi istismarı nəticəsində, xüsusilə insestlə bağlı hallarda, uşaqlıqda və ya yetkinlik dövründə müxtəlif sağlamlıq problemləri ortaya çıxır. Bunlara xroniki və ya təkrarlanan infeksiyalar, cinsiyyət bölgəsində yaralanmalar, qarın ağrıları, xroniki qəbizlik kimi fiziki sağlamlıq problemləri daxildir. Bununla yanaşı, alkoqol və maddə istifadəsi, idrak qabiliyyətlərində gerilik, uşaq cinayətkarlığı, zorakılıq və digər riskli davranışların nümayişi, depressiya və anksiyete, inkişafda gerilik, yemə və yuxu pozğunluqları, utanc və günahkarlıq hissləri, hiperaktivlik, sosial funksiyalarda zəiflik, məktəb uğurunda azalma, məktəbi tərk etmə, evdən qaçma, erkən yaşda evlənmə, azalmış özünə hörmət, post-travmatik stress pozğunluğu, psixosomatik pozğunluqlar, intihar və digər özünə zərər vermə davranışları, həmçinin yetkinlik dövründə zorakılığa məruz qalma meylinin artması kimi hallar sıralana bilər [11, s. 4].

İnsest cinayətləri digər uşaq cinsi istismar formaları ilə müqayisə edildikdə, nəticələri baxımından ən dağıdıcı olanıdır. Aparılan tədqiqatlar və klinik müşahidələr göstərmişdir ki, cinsi istismar nə qədər şiddətli və davamlıdırsa və bunu edənlər uşağa nə qədər yaxın şəxslərdirsə, istismarın uşaq üzərindəki dağıdıcı təsirləri də o qədər artır. İnsest qurbanlarının sonrakı yaşlarında çox miqdarda alkoqol və narkotik maddələrdən istifadə etdikləri, ciddi şəxsiyyət parçalanması və dissosiasiya yaşadıqları, özlərinə davamlı şəkildə zərər verdikləri, ciddi intihar cəhdləri olduğu, gələcəkdə fahişəliyə yönəldikləri və cinsi xidmət sahəsində çalışdıqları tez-tez qeyd olunmuşdur. İnsest qurbanları çox vaxt başqalarının danışıq və jestlərini yanlış şərh edərək bütün davranış və ünsiyyətlərini erotikləşdirir və cinsələşdirirlər [10, s. 142, 143]

Həmçinin cinsi istismara uğramış uşaqların yaşadıqları təcrübələri ailə üzvlərinə açıqlamaq istəmədiklərini qeyd edilir. Buna görə, bu uşaqların gündəlik həyatlarında təcrid olunma, anormal davranış və qorxu kimi hallarla üzləşmə ehtimalı daha yüksəkdir. Üstəlik, uşaqlar, uşaqlıq dövründə cinsi istismar təcrübələrinə malik olduqdan sonra, bu təcrübələri yaşam boyu unuda bilmir və nəticədə ailə üzvləri ilə münasibətlərini düzəltməkdə çətinlik çəkirlər [16, s. 145].

İndi isə, insest cinayətlərinə görə cinayət məsuliyyətinin differensasiyasını bəzi xarici ölkələrin qanunvericiliyi əsasında təhlil edək. Türk hüquq ədəbiyyatında bu münasibətlər "Ensest" və ya "fucur" olaraq müəyyən olunur. Türk Ceza Kanununun 6-cı bölməsi "Cinsi toxunulmazlığa qarşı cinayətlər" adlanır. Maddələrin dispozisiyasına baxdıqda, "cinsel saldırı" adlı 102-ci maddənin 3-cü bəndinin c) bəndi 3-cü dərəcə daxil qan və ya qayın qohumluğu münasibəti içində olan şəxsə qarşı əməlin törədilməsini ağırlaşdırıcı tərkib əlaməti kimi müəyyən edir və təyin edilən cəza yarı miqdarda artırılır.

Uşaq istismarına həsr olunan 103-cü maddənin 3-cü hissəsinə əsasən, uşağa cinsi istismar birinci, ikinci və ya üçüncü dərəcə qan qohumluğu, ögey ata, övladlığa götürən, himayədar, müəllim, baxıcı, tibbi xidmət göstərən və ya qoruma və ya nəzarət etmə öhdəliyi olan digər şəxs tərəfindən və ya xidmət münasibətlərindən doğan nüfuzu mənfi yöndə istifadə etməklə və ya bir qrup şəxs tərəfindən törədildikdə, təyin olunmuş cəza yarı miqdarda artırılır [5].

İndi isə Almaniya modelini təhlil edək. Bütövlükdə, Almaniya modeli müqayisəli təhlil üçün üç əsas səbəbə görə əhəmiyyət kəsb edir: birincisi, insest-spesifik norma (§173) ilə uşaq istismarı norması (§176) arasındakı hüquqi ayrım; ikincisi, Federal Konstitusiya Məhkəməsi, Etika Şurası və AİHM arasındakı çoxsəviyyəli

normativ mübahisə; üçüncüsü isə cəza yönümlü yanaşmanı tamamlayan preventiv müalicə modelinin inkişafı.

Almaniya yaxın qohumlar tərəfindən cinsi istismara münasibətdə beynəlxalq hüquqi müqayisə ədəbiyyatında xüsusi yer tutan bir model təqdim edir. Belə ki, Almaniya Cinayət Məcəlləsi (Strafgesetzbuch, StGB) bu sahəni iki fərqli, lakin bir-birini tamamlayan müddəa ilə tənzimləyir: §173 (qohumlar arasında cinsi əlaqə) və §176 (uşaqların cinsi istismarı). [3]

§173-cü maddəsi qan qohumları arasında cinsi əlaqəni kriminallaşdırır. Maddənin birinci hissəsinə görə, birbaşa qan qohumu olan törəmə ilə cinsi əlaqəyə girən şəxs üç ilədək həbs və ya cərimə ilə cəzalandırılır; həmin münasibətin qan qohumluğu əsası artıq aradan qalxmış olsa belə bu qayda tətbiq edilir. İkinci hissə isə eyni cəza çərçivəsini qan qohumu olan bacı-qardaşa şamil edir. Qeyd olunmalıdır ki, §173-cü maddənin tətbiqi praktikası əsasən müxtəlif cinsli qohumlar arasında baş verən cinsi münasibətlərə şamil olunur; eynicinsli münasibətlər isə birbaşa bu maddə üzrə cinayət məsuliyyətinə cəlb edilmir. Praktikada, məhkəmə statistikasına görə, insest işlərinin böyük əksəriyyəti bu maddə üzrə deyil, uşaq istismarı kimi §176 çərçivəsində təqib olunur. Nəticədə, §173-ün əsas tətbiq sahəsi faktiki olaraq yetkinlər arasındakı hallara daralır.

Beləliklə, Almaniya modelinin özəlliyi ondadır ki, qan qohumu ilə cinsi əlaqənin özü (§173) ümumən yetkin insest kimi nisbətən yüngül cəza çərçivəsindədir, lakin uşaqla cinsi təmas (§176) müstəqil, daha ağır bir cinayət kimi ayrıca kriminallaşdırılmışdır. Bu iki maddənin örtüşdüyü hallarda, yəni uşaq olan bir qohuma qarşı cinsi istismar halında, §176 üzrə ağır cəza tətbiq olunur. Nəticə etibarilə, insest çərçivəsindəki uşaq istismarı Almaniya hüququnda ikiqat qorunma mexanizmi ilə əhatə olunur.

Almaniyada §173-ün konstitusionallığı 2008-ci ildə Federal Konstitusiya Məhkəməsinin önünə gəlmişdir. Bir neçə illik həbs cəzasına məhkum edilmiş bir şəxsin şikayəti üzərinə Məhkəmə qərarında §173.2-nin Əsas Qanunla uyğun olduğunu müəyyən etmişdir. Məhkəmə bu qərarda qanunvericinin üç əsas hüquqi məqsədi qorumaq üçün mülahizə səlahiyyətini aşmadığını vurğulamışdır: ailə quruluşunun insestin zərərli təsirlərindən qorunması; insest münasibətindəki "gücsüz/zəif" tərəfin qorunması; və insest münasibətlərindən doğan uşaqlarda ciddi genetik xəstəliklərin qarşısının alınması. Beləliklə, Məhkəmə insest qadağasının sosial tabu kimi cinayət hüququ vasitəsilə qüvvədə saxlanılmasını məqbul hesab etmişdir [17]. Bununla belə, Almaniya Etika Şurası (Deutscher Ethikrat) 2014-cü ildə yetkin qardaş-bacılar arasında razılıqla baş verən insest üçün §173-ün ləğvini çoxluq qərarı ilə tövsiyə etdi. Şuranın arqumentasiyasına görə, nə ailə üçün mənfi nəticə ehtimalı, nə də belə münasibətdən uşaq doğulması imkanı yetkin qardaş-bacılar arasında razılığa əsaslanan insestin cinayət olaraq qadağan edilməsini əsaslandıra bilmir. [18]

Avropa İnsan Haqları Məhkəməsi isə 2012-ci ildə Stübing Almaniyaya qarşı işdə §173-ün Avropa İnsan Hüquqları Konvensiyasının 8-ci maddəsini (şəxsi həyata hörmət hüququ) pozmadığına qərar verdi. Məhkəmə bu sahədə dövlətlərə geniş mülahizə marjı tanıdı və Almaniya qanunvericisinin insest qadağasını saxlamaqda məqbul məqsədlər güddüyünü qəbul etdi.

Almaniya hüquqi sisteminin cinsi istismarla mübarizədə ən maraqlı aspektlərindən biri "Dunkelfeld" (qaranlıq sahə) proqramıdır. Bu proqram, uşaqlara qarşı cinsi cazibə hiss edən, lakin hər hansı cinayət törətməmiş şəxslərə məxfi və könüllü psixoloji yardım göstərməyi hədəfləyir. Proqramın hüquqi əsasını peşəkar sirr saxlama öhdəliyi və gizlilik təşkil edir; bu müddəalar müalicə aparan mütəxəssislərə xəstə məlumatlarını məxfi saxlama imkanı verir. Vacib bir fərq olaraq qeyd etmək lazımdır ki, məcburi

xəbərvermə tələbi mövcud olan yurisdiksiyalarda belə bir proqramın həyata keçirilməsi mümkün deyildir, çünki xəbərvermə öhdəliyi potensial iştirakçıları proqramdan uzaqlaşdıra bilər. Bu baxımdan Almaniya yanaşması preventiv müdaxilə modelinin mümkün olduğunu nümayiş etdirir.

Gürcüstan Cinayət Məcəlləsinin 137-ci maddəsi zorlama cinayətinə həsr olunmuşdur. Maddənin ağırlaşdırıcı hallarına baxsaq görürük ki, zorlama, yəni bədənin hər hansı bir hissəsindən və ya hər hansı bir əşyadan istifadə etməklə, zorakılıqla, zor tətbiq etmək hədə-qorxusu ilə və ya zərərçəkmişin aciz (köməksiz) vəziyyətindən istifadə etməklə şəxsin bədəninə hər hansı formada cinsi xarakterli daxil olma, maddənin 4-cü hissəsinin d bəndinə əsasən, "d) yetkinlik yaşına çatmayana qarşı güvən (etibar), nüfuzluluq və ya təsir mövqeyindən istifadə etməklə törədildikdə" – on beş ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə ilə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır (silahdan istifadə hüquqlarından məhrum etməklə və ya etməməklə) [4].

Böyük Britaniyada bu sahədə hüquqi tənzimləməni 2003-cü il tarixli "Sexual Offences Act", yəni "Cinsi cinayətlər haqqında akt" həyata keçirir. Bu akta nəzər yetirdikdə bizə məlum olur ki, burada cinsi istismarın tam əhatəli dairəsi müəyyənləşdirilmiş və hər bir hərəkətə münasibətdə məsuliyyət fərdiləşdirilmişdir.

Adı çəkilən aktın 64-cü maddəsi isə "Sex with an adult relative: penetration", yəni "Yetkin qohumla cinsi əlaqə: penetrasiya (daxil etmə)" adlanır. Maddənin 1-ci hissəsində bu cinayət tərkibinin yaranması üçün zəruri olan hallar müəyyənləşdirilir. Maddənin 1-ci hissəsinin a bəndində "daxil etmə" anlayışına aydınlıq gətirilir, (b) bəndində bu daxil etmənin seksual xarakter daşımalı olması; (c)-də cinayətkarın 18 yaşına çatmış olması; (d) bəndində A(zərərçəkmiş) ilə B-nin (cinayətkarın) bu maddənin 2-ci bəndində göstərilən qohumluq münasibətində olması; (e) bəndində isə B-nin A ilə bu cür qohumluq münasibətində olduğunu bilməsi və ya məqbul qəbul etməsi şərtlərinin hər birinin birlikdə mövcudluğu zəruridir.

Maddənin 2-ci hissəsində qanunverici "qohumluq münasibəti" anlayışına aydınlıq gətirir. Maddəyə əsasən, A-nın B ilə ola biləcək qohumluq münasibətləri aşağıdakılardır: valideyn, baba, nənə, övlad, nəvə, qardaş, bacı, ögey qardaş, ögey bacı, əmi, xala, dayı, bibi, qardaş və bacının övladı (yəni qardaşoğlu, bacıoğlu, qardaşqızı, bacıqızı).

Maddənin 3-cü hissəsində isə bəzi anlayışlara ayrı-ayrılıqda aydınlıq gətirilir:

4) "valideyn" anlayışına övladlığa götürən valideyn də daxildir;

4) "övlad" anlayışına 2002-ci il "Övladlığa götürmə və uşaqlar haqqında" Qanunun 1-ci hissəsinin 4-cü fəslinə uyğun olaraq övladlığa götürülmüş şəxs də daxildir;

4) "əmi" anlayışı şəxsin valideyninin qardaşını, "xala" isə müvafiq olaraq valideynin bacısını ifadə edir;

4) "qardaşoğlu" şəxsin qardaşının və ya bacısının övladını, "qardaşqızı" isə müvafiq olaraq bacının və ya qardaşın qız övladını ifadə edir.

Bu aktın 65-ci maddəsində hətta müəyyən olunur ki, 16 yaşına çatmış A, özü ilə qohumluq əlaqələrinə malik olan və 18 yaşına çatmış B-yə müvafiq hərəkətlərin edilməsinə könüllü razılıq verdikdə, müvafiq cinayət məsuliyyəti daşıyır [15].

22 oktyabr 2019-cu il tarixli Azərbaycan Respublikasının Qanunu ilə "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyası dövlətimiz tərəfindən təsdiq edilmişdir.

Bu Konvensiyanın VI Fəsli "Maddi cinayət hüquq normaları" adlanır. Bu fəslin 18-ci maddəsi isə "Cinsi zorakılıq" mövzusuna həsr edilmişdir. Maddənin 1-ci hissəsinə əsasən, hər bir Tərəf bü-

tün zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir ki, aşağıda göstərilən qəsdən törədilmiş əməllərə görə cinayət məsuliyyətinin müəyyən edilməsi təmin edilsin:

a) qanunvericiliyin müvafiq müddəalarına əsasən seksual xarakterli hərəkətlər üçün qanunla müəyyən edilmiş yaşa çatmamış uşaqla seksual xarakterli hərəkətlər;

b) uşaqla aşağıdakı hallarda seksual xarakterli hərəkətlər etmə:

məcbur etməklə, güc tətbiq etməklə və ya hədə-qorxu gəlməklə;

yaxud uşağın etibarından, onun üzərində nüfuzdan və ya təsirdən, o cümlədən ailə daxilində sui-istifadə etməklə;

yaxud uşağın xüsusilə zəif vəziyyətindən, yəni əqli və ya fiziki əlilliyə və ya asılılıq vəziyyətinə görə sui-istifadə etməklə [6].

Məsələyə milli səviyyədə baxsaq bizə aydın olur ki, insest cinayətləri Azərbaycan üçün bir o qədər ciddi səviyyədə xarakterik olmasa da, son zamanlarda məhkəmə təcrübəsində daha çox rast gəlinməyə başlayıb. Bəzi hüquqşünaslar bunu bu cinayətkarların daha çox içki və s. ilə yaxın təmasda olması və bu cinayətlərin sərxoşluq vəziyyətində törədilməsi ilə əlaqələndirir. Lakin vəziyyət düşündüyümüzdən daha acınacaqlı ola bilər.

Milli qanunvericiliyimizi təhlil etdikdə bizə məlum olur ki, "Zorlama" cinayətini nəzərdə tutan 149-cu maddəsinin dispozisiyasında, məsuliyyətin xüsusilə ağırlaşdırıcı halı kimi bu cinayətin zərərçəkmiş şəxsə qohumluq münasibətində olan şəxs tərəfindən törədilməsi halı müəyyən olunmamışdır. Bu hala nəinki sadəcə 149-cu maddədə, "Şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlər" fəslindəki heç bir digər tərkibdə rast gəlinmir. Sadəcə "On altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə" adlanan 152-ci və "On altı yaşına çatmayan şəxsə qarşı əxlaqsız hərəkətlər" adlanan 153-cü maddənin 3-cü hissəsində xüsusilə ağırlaşdırıcı hal kimi bu cinayətlərin yetkinlik yaşına çatmayanı tərbiyə etmək vəzifəsi daşıyan şəxslər və ya yetkinlik yaşına çatmayana nəzarəti həyata keçirmək vəzifəsini daşıyan təhsil, tərbiyə, tibbi və ya digər müəssisənin müəllimi və ya digər işçisi tərəfindən törədilməsi halı müəyyən edilmişdir [1].

Kommentarial şərhə əsasən, yetkinlik yaşına çatmayanı tərbiyə etmək vəzifəsi daşıyan şəxs dedikdə onun valideynləri, övladlığa-götürənlər, qəyyumlar, himayəçilər, himayədar valideynlər başa düşülür. Yetkinlik yaşına çatmayanlara nəzarəti həyata keçirmək vəzifəsini daşıyan şəxslərə isə onların olduqları müəssisələrin (ümumtəhsil və peşə məktəblərinin, açıq və ya qapalı tipli təlim-tərbiyə və tibbi-tərbiyə müəssisələrinin) müəllimi və ya digər işçisi (tərbiyə məsələləri üzrə direktor müavini və s.) aiddir [2, s. 596].

Lakin gördüyümüz kimi burada nəzərdə tutulması zəruri olan şəxslərin dairəsi məhduddur, qanunverici buraya valideyndən başqa digər qohumları daxil etmir və məhdud nəzərdə tutulan bu ağırlaşdırıcı hala özü-özlüyündə də sadəcə yuxarıda adı çəkilən 2 maddədə rast gəlinir.

Yekun təklif: Tədqiqat predmetinin tərkib hissəsi kimi çıxış edən xarici ölkə qanunvericiliklərinin və Azərbaycan Respublikasının tərəfdar çıxdığı "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasının müvafiq ictimai münasibətləri tənzimləyən müddəaları nəzərə alınaraq, təklif edirik ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin "Şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlər" adlanan XX Fəslində nəzərdə tutulan hər bir maddəyə məsuliyyəti xüsusilə ağırlaşdırıcı hal kimi əlavə olunsun:

"bu əməllər zərərçəkmiş şəxsə münasibətdə qohumluq əlaqələri olan şəxs tərəfindən törədildikdə -"

Məsuliyyət məsələsi isə müvafiq cinayət tərkibinin ağırlıq dərəcəsinə uyğun olaraq hesablansın.

Xüsusilə vurğulamaq istəyirəm ki, təklif olunan ağırlaşdırıcı hal 149-cu maddəyə münasibətdə maddənin 3-cü hissəsində sadalanan hallara daxil edilsin və barəsində üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə on beş ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulsun.

Bu sahədəki ictimai münasibətlərin tənzimlənmə və cəzanın fərdiləşdirilməsinin nəzərə alınması ilə yanaşı, bu cinayətlərlə mübarizə sahəsində bir sıra profilaktik tədbirlər də müəyyənləşdirilməlidir. Məsələn, Almaniya kontekstində tədqiqat zamanı müəyyən edildi ki, "Dunkelfeld" proqramı hər hansı bir hüquqa və əxlaqa zidd əməl törədilməzdən öncə preventiv tədbir kimi potensial cinayətkarlara məxfi əsaslarla yardım və bununla da cinayətkarlıqla mübarizə sahəsində effektiv nəticələr əldə etməyi planlayır. Belə bir proqramın yaradılması milli səviyyədə də effektiv olardı.

Həmçinin qurbanlara münasibətdə də məxfi əsaslarla onlayn formatda psixoloji və hüquqi yardımın göstərilməsi üçün hər hansı bir platforma yaradıla bilər. Məsələn, RAINN (Rape, Abuse & Incest National Network) ABŞ da cinsi zorakılıq qurbanlarına dəstək göstərən ən böyük qeyri kommersiya təşkilatıdır. Onun əsas xidməti 24/7 fəaliyyət göstərən "National Sexual Assault Hotline"dir (800 656 HOPE), həm telefon, həm də onlayn çat vasitəsilə tam anonim və konfidensial yardım təqdim edir. Belə bir platformanın Azərbaycan müstəvisində də yaradılması həm müxtəlif rayonlarda (şəhərlərdə) yaşayan şəxslər üçün daha əlçatan, daha gizli və qurbanların müraciət etməkdən çəkinməməsi üçün daha güvənli olar.

Təqdim olunan tədqiqatın predmeti qismində insest cinayətləri ilə bağlı ictimai münasibətlər, onların müxtəlif hüquq sistemlərinə daxil olan ölkələr səviyyəsində hüquqi tənzimlənməsinin müqayisəli hüquqi təhlili və bu sahədə milli qanunvericiliyimizdəki boşluqlar və bəzi təklif olunan profilaktik tədbirlər çıxış etdi. İnsest cinayətlərinin – cinsi toxunulmazlığa və cinsi azadlığa qarşı yönəlmiş cinayətlərin xüsusi bir qolu olmaqla, nəticələri etibarilə həm cəmiyyət, həm də fərd üçün xüsusilə dağıdıcı təsirə malik olması vurğulandı.

Araşdırmada insest cinayətlərinin yüksək gizlilik (latentlik) səviyyəsi, uşaq qurbanların üzləşdiyi fiziki və psixoloji çətinliklər, eləcə də bu cinayətlərin onların sosial həyatına qaçılmaz təsiri, həmçinin cinayətkarın aspektindən yanaşılaraq fərdin ictimai təhlükəliliyi və psixoloji qüsurları təhlil edildi.

Tədqiqat çərçivəsində roman–german və anqlosakson hüquq sistemlərinə daxil olan ölkələrin qanunvericiliyi müqayisəli-hüquqi metod əsasında təhlil edilmiş, əldə olunan nəticələr əsasında Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əlavə və dəyişikliklərin edilməsi ilə bağlı təkliflər, habelə profilaktik xarakterli tədbirlər irəli sürülmüşdür.

İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi // Azərbaycan Respublikasının 30 dekabr 1999-cu il tarixli 787-IQ nömrəli Qanunu ilə təsdiq edilmişdir (30 Oktyabr 2025-ci il tarixdə olan dəyişikliklər). [Elektron resurs]/URL:

2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi Kommentariyası, [2 cilddə] / Elmi red. F.Y. Səməndərov. – Bakı: Hüquq Yayın Evi, – c. 1. – 2023. – 786 s.

3. Almaniya Cinayət Məcəlləsi // Almaniya İmperiyasının 15 may 1871-ci il tarixli Qanunu ilə qəbul olunmuşdur : [Elektron resurs]/URL:

4. Gürcüstan Cinayət Məcəlləsi // Gürcüstan Respublikasının 22 iyul 1999-cu il tarixli №2287 nömrəli Qanunu ilə qəbul olunmuşdur: [Elektron resurs]/URL:

5. Türkiyə Cinayət Məcəlləsi // Türkiyə Respublikasının 26 sentyabr 2004 cü il tarixli və 5237 nömrəli Qanunu ilə qəbul olunmuşdur: [Elektron resurs]/URL:

6. “Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında” Avropa Şurası Konvensiyası // Avropa Şurasının Nazirlər Komitəsinin 25 oktyabr 2007-ci il tarixli №201 qərarı ilə qəbul edilmişdir : [Elektron resurs]/URL:

7. “Uşaq hüquqları haqqında” Konvensiya // Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 20 noyabr 1989-cu il tarixli 44/55 saylı qətnaməsi ilə qəbul edilmişdir : [Elektron resurs]/URL:

8. Elnur Nəcəfov “Uşaqların cinsi istismarı ciayətləri”. Məqalə. Polis Akademiyasının Elmi xəbərləri, - 2023. -184 s.

9. “Aynı Ailede Görülen Çoklu Ensest”, Sefa Saygılı, Sinem Gönenli, Düşünen Adam Dergisi, 2008, s. 37.

10. “Çocuk cinsel istismarı hakkında bir derleme”, Sefa Bulut, Türk Psikolojik Danışma ve Rehberlik Dergisi, 2005, s. 156.

11. “Yasak cinsel ilişki: Ensest”, Aylin Görgün Baran, Nüket Paksoy Erbaydar, 2009, s. 5, 12. Australian İnstitute of Health and Welfare. «Child sexual abuse», 2026,

13. A familiar face: Violence in the lives of children and adolescents. UNICEF, 2017

14. Policy Paper. Tackling child sexual abuse: progress update, 2025, s. 28.

15. “Sexual Offences Act”, 2003,

16. The effects of childhood sexual abuse on children’s psychology and Employment - Md. Abdul Wohaba, Sanzida Akhter, 2010, s. 149.

17. «Bundesverfassungsgericht [Federal Konstitusiya Məhkəməsi, Almaniya]. Criminal liability of sibling incest is constitutional, 2008,

18. «Deutscher Ethikrat [Alman Etika Şurası], Incest prohibition: Opinion, 2014,

Гасанли Аян Эльчин гызы,
студент 3-го курса по специальности «Юриспруденция»
Академии государственного управления при
Президенте Азербайджанской Республики

ИНЦЕСТУОЗНЫЕ ПРЕСТУПЛЕНИЯ: КРИМИНОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ, СРАВНИТЕЛЬНО-ПРАВОВОЙ АНАЛИЗ И ПЕРСПЕКТИВЫ СОВЕРШЕНСТВОВАНИЯ ЗАКОНОДАТЕЛЬСТВА

РЕЗЮМЕ

Настоящее исследование посвящено общественным отношениям, возникающим в связи с инцестуозными преступлениями, и их сравнительно правовому анализу в странах, принадлежащих к различным правовым системам, с выявлением пробелов в национальном законодательстве. Инцестуозные преступления представляют собой особую категорию деяний против половой неприкосновенности и свободы, оказывающих разрушительное воздействие на общество и личность. Наиболее тяжким проявлением данных преступлений является сексуальная эксплуатация детей родственниками. В работе рассматриваются высокий уровень латентности инцестуозных преступлений, физические и психологические последствия для несовершеннолетних жертв, а также неизбежное влияние этих деяний на их социальную адаптацию. С позиции преступника анализируются общественная опасность личности и её психологические дефекты. В рамках романо германской правовой системы (Германия, Грузия, Турция) данные отношения регулируются в форме кодекса, тогда как в англосаксонской системе (Великобритания) — посредством отдельного закона. Применяя сравнительно правовой метод, автор предлагает конкретные дополнения и изменения в национальное законодательство для обеспечения эффективной защиты от инцестуозных преступлений.

Hasanli Ayan Elchin,
3rd-year student, Academy of Public Administration
under the President of the Republic of Azerbaijan

INCEST CRIMES: CRIMINOLOGICAL CHARACTERISTICS, COMPARATIVE LEGAL ANALYSIS, AND PROSPECTS FOR LEGISLATIVE IMPROVEMENT

SUMMARY

The study examines the social relations arising from incestuous crimes and provides a comparative legal analysis of their regulation across different legal systems, identifying gaps within national legislation. Incestuous crimes, as a distinct category of offenses against sexual inviolability and sexual freedom, have profoundly destructive consequences for both society and individuals. The sexual exploitation of children by relatives represents the most severe manifestation of these offenses. The research highlights the high latency of incestuous crimes, the physical and psychological trauma experienced by child victims, and the inevitable impact on their social development. From the perpetrator's perspective, the study analyzes public dangerousness and psychological deficiencies. Within the Romano-Germanic legal system—represented by Germany, Georgia, and Turkey—these relations are codified, whereas in the Anglo-Saxon system, exemplified by the United Kingdom, they are regulated through a separate Act. Using the comparative legal method, the study proposes amendments and additions to national legislation to ensure comprehensive protection against incestuous crimes.

Redaksiyaya daxilolma tarixi: 11.05.2026
Təkrar işlənməyə göndərilmə tarixi: 25.06.2026
Çapa qəbul olunma tarixi: 29.06.2026